# Vətəndaş cəmiyyətinin tələbi



**Elektrik və peşəkar pianoçu ailəsində doğulub oxuduğu sinifdə yeganə yəhudi olduğundan qapalı böyüsə də, mükəmməl kino təhsili almaqla, çəkdiyi otuz dörd filminin əksəriyyəti hitə çevrilməklə dünya tamaşaçısına tanış olan amerikalı rejissor Stiven Allan Spilberqin Robert Rodatla birgə yazdığı ssenari əsasında 1998-ci ildə ərsəyə gəlməklə yaradıcılarına "Ən yaxşı rejissor işi" də daxil olmaqla beş Oskar bəxş edən "Sıravi Rayını xilas etmək" ekran əsəri geniş rezonans yaratdı.**

İlk epizoddan görünən ABŞ bayrağı dövlətçilik prinsipini bəyan etməklə qardaşlıq məzarlığında sabiq əsgərin hıçqırtıları üzərində sıralanmış xaç şəkilli şəhid məzarlarının təsviri mövzu xatirəyə keçid üçün əsas verir. 6 iyun 1944-cü ildə Amerika dəniz desantının cəbhə bölgəsinə gəlişilə başlanan hadisəlilik prinsipində ilk döyüşün ölüm-dirim mübarizəsinin gərginliyi önə keçir. Bir-birinin ardınca qırılan əsgərlərin suyun altında qeyb olmaları, parçalanan, alışıb yanan, içalatı çölə tökülən insan bədənləri, qandan qızaran dəniz suyu müharibənin anatomiyasını göstərir. Sahilə çıxmaq uğrunda mübarizə aparan əsgərlərin qarşılaşdıqları dəmir beton müdafiə səngərinin sərt müqavimətinin dəf edilməsi audiovizual həllini tapır. İri çaplı güllədən deşilmiş rabitə telefonunun cihazı komandanlıqla əlaqənin kəsildiyini göstərməklə gərginliyi artırır. Ayağından axan qanın kəsilməsinə cəhd edilən əsgərin başından vurulması, digər sürünən yaralının ikiyə bölünməsi ölümün portretini yaradır. Psixoloji triller elementləri tamaşaçıya bir an belə nəfəsini dərməyə imkan verməmədiyi məqamda Allahı köməyə çağırıb alman snayperlərini məhv edən Amerika əsgəri döyüşdə vəziyyətin qismən dəyişilməsinə nail olur. Dəmir beton müdafiə səngərinə daxil olan Amerika əsgərlərinin döyüşün taleyini dəyişmələri maneələri dəf etməklə həyata keçirilir. Qanlı dalğaların cəsədləri sahilə çıxardığını təsvir edən kadrlar gərgin epizodlar arasında keçid rolunu oynadığı məqamda üzüquyulu düşən əsgərin çantası üzərindəki Rayn soyadının oxunması fabula mexanizmini önə çəkir.

Amerikadakı ordu qərargahında çoxsaylı teleqraf qurğusunda yığılan məlumatlarda bir ailədən çağırılan dörd qardaşdan üçünün, Piter, Şon və Daniyel Raynların ölüm faktı əsas hadisənin məğzini yaradır. Ertəsi gün ananın üç oğlunun ölümü barədə qara xəbər alacağı faktının yüksək səviyyədə müzakirə olunması dövlət və vətəndaş münasibətini səciyyələndirir. Normandiya desantı olan dördüncü qardaş Ceyms Raynın da sağ olub-olmamasının bilinməməsi isə dramatizmi gücləndirir.

Saralmış zəminin arası ilə toz qopara-qopara gələn, üzərində ABŞ bayrağının təsviri olan avtomaşını izləyən həyəcanlı ananın müvazinətini itirərək yerə yıxılması ağır dərdin audiovizual həllini verir. Qərargahdakı yüksək çinli ordu zabitlərinin sonuncu Raynın sağ olub-olmadığını araşdırmaları və vaxtilə respublikanın qorunması yolunda şəhid olmuş beş oğlunu itirən anaya göndərilən Avraam Linkolnun məktubunun oxunması dövlətçilik prinsipini yenidən önə çəkir. Raynın xilası naminə kapitan Con Millerin (Tom Henks) başçılığı ilə səkkiz nəfərdən ibarət xüsusi təyinatlı dəstənin Normandiyaya göndərilməsi dövlətin vətəndaşı uğrunda mübarizəsinin tərənnümünə çevrilir. Cəbhədəki çoxsaylı əsgərlər arasında Raynı tapmaq cəhdi ot tayasında iynənin axtarılmasına bənzəsə də, baş qərargahdan göndərilən xüsusi təyinatlı xilas dəstəsinin vaqeələri dramaturji prinsiplə həyata keçirilir.

Yarpaqlar üzərinə səpələnməklə get-gedə güclənən yağış damcıları növbəti döyüş səhnəsinə uğurlu keçid edir. Və mərmidən divarı uçmuş evdəki fransız ailəsindəki qızcığazın xilası naminə yaralanan kapralın axan qanının güclü yağış damcılarından selə çevrilməsi ölümün poetik simvolunu yaradır. Düşmən snayperinin vurulması ilə valideynlərinə qayıdan qızcığazın atasını silləiəməsinin gərginliyin mikromodelini yaratması və ölmüş kapralın ailəsinə çatdırılacaq qanlı məktubunun götürülməsi epizodu tamamlasa da, növbəti divarın təsadüfən uçması nəticəsində iki düşmən tərəfin üz-üzə gəlməsi dramatizmi artırır.

Uzun axtarışdan sonra nəhayət ki, tapılaraq qardaşlarının ölüm xəbərini alan Ceyms Raynın ağlaya-ağlaya müharibədən sonra onları balıq tutmağa aparacağı arzusu ilə yaşadığını bildirməsi gözönü hadisələri maneələrin dəf olunması yolu ilə üzə çıxarır. Ceyms Raynın qardaşlarının məktəbli olmaları faktının üzə çıxması hüznlü gülüş yaradaraq tamaşaçını axtarışın davamını izləməyə sövq edir.

Kapralın qanlı məktubunun bəyaz kağıza köçürülməsi fonunda tapşırığın yoxsa insanın vacib faktor olmasının müzakirəsi və ölümlər bahasına xilas ediləcək Raynın layiqli vətəndaş olmasının arzulanması əsas ideyanı önə çəksə də, sıralanıb keçən alman əsirlərinə sinəsindəki sionist nişanını göstərməklə "Mən yəhudiyəm!" deyə təkrarlayan Amerikalı əsgər müəllifin daxilindəki milli müqavimətin təzahürünə çevrilir. Ötüb keçən çoxsaylı əsgərlərin, döyüşdə həyatını qeyb edənlərdən qalmış jetonlar arasında Raynın axtarılması yenidən əsas məqsədi, problemin həllinə yönələn növbəti hadisəni önə çəkir. Nəhayət ki, kontuziya almaqla kar olmuş Amerika əsgərindən kağıza



yazıb göstərməklə Ceyms Raynın harada olması barədə təxmini informasiyanın alınması məqsədyönlü axtarışa şərait yaradır. Kompas vasitəsilə istiqamət götürən dəstənin rastlaşdığı çoxsaylı cəsədlər ümidi qırsa da, yeni döyüş epizodu gərginliyi artırır. "Məqsədimiz qələbədir" deyən kapitan Con Millerin əsgərlərini əsas tapşırıqdan yayınmadan döyüşə cəlb etməsi məntiqi həllini tapır. Ölüb şişmiş inəyin arxasında gizlənən sanitarın durbinlə izlədiyi əməliyyatda yaralanan əsgərin xilası prosesi sərt audiovizual ifadələrlə həyata keçirilir. Son sözü "Ana, mən evə istəyirəm" olan əsgərin yazdığı məktubun götürülməsi və məzarını onu öldürən düşmən əsgərinə qazdırılması gərginliyi önə çəkir. Məzar qazmağı uzatmaqla, "Yaşasın Amerika", "Hitler kaput" deməklə ölümdən xilas olmağa çalışan alman snayperinin müttəfiq qoşunları tərəfindən əsir götürüləcəyi gümanı ilə azad buraxılması dəstədəkilər arasında mübahisə doğurur. İxtisasca müəllim olan kapitanın əsirlə məşğul olmağın deyil, Raynın axtarılmasının vacibliyini bir daha əsgərlərinə anlatması əsas dramaturji hadisəni nizamlayır. Axır ki, uğurlu təsadüf nəticəsində, gərgin döyüş məqamında tapılaraq qardaşlarının həlak olması, özünün cəbhədən geriyə çağrılması xəbəri verilən Ceyms Raynın döyüş tapşırığını sona qədər yerinə yetirməyə qərar verməsi onun qətiyyətini, vətəndaş mövqeyini təsdiqləyir. Onun həyatı naminə iki nəfərin öldüyünü bilən Ceymsin hər bir əsgəri özünə qardaş hesab etdiyini bildirməsi vətənpərvərliyin nümunəsinə çevrilir.

Zirehli texnika ilə hücuma keçmək istəyən almanları qarşılamaq üçün birgə əməliyyat planının hazırlanması qələbəyə doğru yönələn qlobal ideyanı əks etdirir. Haradansa səslənən Edit Piafın sevgilisinə həsr etdiyi mahnısının sədaları altında ağır döyüşün gözlənilməsi uğurlu sapsens yaradır. Artıq bu dünyada olmayan qardaşlarının üzlərini xatırlaya bilmədiyini kapitana söyləyən Ceymsin onlarla bağlı son xatirəni yada salması süjetlə fabulanı əlaqələndirir. Küçə döyüşlərində düşmənin zirehli texnikasına müqavimət göstərənlər arasında qorxaqlıq edərək döyüşdən yayınan Amerikalı əsgərlə yanaşı, cəsarətli Ceyms Raynın dəfələrlə ölümlə üz-üzə gəlməsi və əvvəlki epizodda əsir götürüləcəyi gümanı ilə azad buraxılan alman snayperinin xüsusi amansızlığı, yaralı kapitan Con Millerin üzərinə gələn tankı tapança atəşi ilə məhv etməsi dramatizmi artırır və nəhayət Amerika təyyarələrinin səmada görünməsi qələbənin təntənəsinə çevrilir.



Qorxaq əsgərin qeyrətə gələrək amansız alman snayperini güllələməsi son epizodlardan keçən süjet xəttini qapayır. Özü ölüm ayağında ikən ləyaqətli əsgər olduğunu sübuta yetirən Ceyms Raynın xilasına görə məmnunluğunu bildirən kapitan Con Millerin sözlərinin oğullarını itirmiş anaya göndərilən məktubdakı Avraam Linkolnun cümlələri ilə davam etdirilməsi rəsmi protokol mərasiminə dramaturji status verir. Ekranda tədricən qocalan Ceyms Raynın filmin əvvəlindəki şəhid məzarlığında yenidən görünməsi ekran əsərinin mövcud çevrəsini tamamlayır. Məzarlığa ailəsi ilə birgə gəldiyi məlum olan Ceyms Raynın Con Millerin qəbri üzərinə əyilərək: "Mən sizin tapşırdığınız kimi ləyaqətlə yaşadım" deməsi vətəndaşın mənəvi borcunun daha ülvi olduğunun təsdiqinə çevrilir. Və ötən əsrin faşizm kimi qlobal təhlükəsinə sinə gərənlərin mənəvi iflas problemilə üzləşdiyinə işarə vurulur.



● **A.DADAŞOV,**
***kinoşünas***